**AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ**

“Təsdiq edirəm”
ADNSU-nun Elm və Texnika
işləri üzrə prorektoru
________ g.m.e.d.R.Y.Əliyarov

_________ __________ 2019-cu il

**5312.01 - “Sahə iqtisadiyyatı”** ixtisası üzrə

doktoranturaya qəbul imtahanının

**PROQRAMI**

**BAKI - 2019**

## Giriş

5312.01 - “Sahə iqtisadiyyatı” ixtisası üzrə doktoranturaya qəbul imtahanın proqramı bakalavr və magistr hazırlığı prosesinda tədris edilmiş “Sənayenin iqtisadiyyatı”, “Menecmentin əsasları”, “Müəssisənin iqtisadiyyatı”, “İnvestisiya fəaliyyətinin təhlili”, “Sahibkarlıq fəaliyyəti” fənlərinin tədris proqramı əsasında tərtib edilmişdir.

Doktorantaruya qəbul imtahanının proqramına daxil edilmiş mövzuların məntiqi ardıcıllığı elə qurulmuşdur ki, doktoranturaya daxil olmaq istəyən mütəxəssisin göstərilən fənlər üzrə bilik səviyyəsini müəyyən etmək mümkün olsun.

Proqrama daxil edilmiş mövzular bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin xüsusiyyətlərini, onun idarə edilməsi prinsiplərini məntiqi ardıcıllıqla əks etdirir. Bu isə imtahan vaxtı doktoranturaya daxil olmaq istəyən mütəxəssisin sualları başa düşməsini və cavabını asanlaşdırır.

### Mövzu 1. Sahə iqtisadiyyatının obyekti və predmeti. Sahə iqtisadiyyatının məzmunu, vəzifələri və metodologiyası.

Sahə iqtisadiyyatının mahiyyəti, onun fəaliyyət istiqamətləri. Mikro və makroiqtisadiyyat, onun xüsusiyyətləri. Sahənin obyekti və predmeti. İqtisadi sistemlər, onların xüsusiyyətləri və məzmunu. İstifadə olunan iqtisadi metodların təsnifatı. Sahə iqtisadiyyatının digər sahələrlə qarşılıqlı əlaqəsi.

### Mövzu 2. Sahədə müəssisələrin təşkilinin iqtisadi məzmunu, əhəmiyyəti, vəzifələri, onun hüquqi – təşkilati formaları.

İstehsal müəssisələrinin daxili və xarici mühiti, əsas funksiyaları. İstehsal müəssisələrinin sahə və ərazi komplekslərinin mərkəzi bölməsi. Yeni müəssisələrin yaradılması və hüquqi sənədləşdirilməsi.Müəssisələr haqqında AR-nın qanunu, onun mahiyyəti. Müəssisələrin təsnifatının əsas əlamətləri: buraxılan məhsulun xarakteri, ixtisaslaşma səviyyəsi, ölçüləri və tipi.

**Mövzu 3. Sahədə sahibkarlıq fəaliyyətinin fomaları və növləri.**

Biznes və sahibkarlıq fəaliyyətinin məqsəd və vəzifələri. Sahibkarlıq mühiti.Sahibkarlığın formaları. Sahibkarlıq fəaliyyətinin hüquqi bazası. Sahibkarlıq fəaliyyətinin stimullaşdırılması haqqında AR-nın qanunu. Sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi. Sahibkarlıq fəaliyyətinə investisiyaların cəlb edilməsi mexanizmləri. Sahibkarlığın növləri.Biznes və sahibkarlıq fəaliyyətinin mahiyyəti. Azad iqtisadi zona, onun yaradılmasının məqsədi və xüsusiyyətləri.

**Mövzu 4. Sahədə istehsalın iqtisadi səmərəliliyi. Sənaye müəssisələrində idarəetmə mexanizmi və prosesi.**

İstehsal prosesinin təsnifatı. İstehsalın təşkili metodları: seriyalı, fərdi və kütləvi. Istehsalın təşkilinin əsas formaları: təmərküzləşmə, ixtisaslaşma, kooperativləşmə, kombinələşmə. Istehsalın yerləşdirilməsi xüsusiyyətləri, onların əsas prinsipləri və onun səmərəliliyinin qiymətləndirilməsi yolları. Istehsalın səmərəliliyinin mahiyyəti, formaları, meyarı və göstəriciləri. Mütləq və müqayisəli səmərəlilik. İqtisadi səmərəliliyin hesablanmasında məsrəflərin uçotu. Vaxt amili. Sosial səmərə və onunla əlaqədar məsrəflər. Səmərəliliyin yüksəldilməsi yolları.

İdarəetmənin metodları və onların mahiyyəti. İqtisadi – təşkilati sərəncam və sosial-psixoloji metodlar. Idarəetmə metodlarının təkmilləşdirilməsi yolları.

**Mövzu 5. Sahədə marketinq fəaliyyəti.**

Marketinqin əsas məqsədi və vəzifələri. Marketinq fəaliyyətinin növləri və onun formaları. Reklam. Reklamın xarakterik xüsusiyyətləri.Reklam vasitələrinin təsnifatı. Reklam haqqında Azərbaycan Respublikasının qanunu. Marketinq fəaliyyətinin stimullaşdırılması metodları. Marketinq tədqiqatları.

## Mövzu 6. Sahədə təsərrüfat fəaliyyətinin planlaşdırılması. İstehsal sahələrinin xarici-iqtisadi fəaliyyəti.

Planlaşdırmanın mahiyyəti və mühüm xüsusiyyətləri. Planlaşdırma metodologiyasının əsasları. Planının təşkilinin mərhələləri, prinsipləri və metodları.

Istehsal proqramı, onun göstəriciləri: məhsul həcmi, nomenklatura, çeşid və keyfiyyəti.İstehsal proqramının planlaşdırılmasının əsasları.Biznes-plan.

Biznes-planın quruluşu və hazırlanması xüsusiyyətləri.Biznes planını reallaşmasının başlıca ünsürləri.

İstehsal sahələrinin yaradılması prinsipləri.Sahələrin xarici-iqtisadi fəaliyyət istiqamətləri. İstehsal sahələrinin xarici-iqtisadi fəaliyyətində alqı-satqı müqavilələrinin quruluşu, məzmunu bağlanması qaydası. Xarici-iqtisadi fəaliyyətin tənzimlənməsi yolları. İstehsal sahələrinin tənzimlənməsində investisiya və innovasiya siyasətinin rolu.

## Mövzu 7. Elmi-texniki tərəqqi və elmi-texniki potensial. İnnovasiya və sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasında onun rolu.

ETT-nin mahiyyəti və istehsalın səmərəliliyinin artırılmasında onun səmərəliliyi. Sənaye sahələrində ETT-nin əsas istiqamətləri. ETT-nin maddiləşməsində sənaye sahələrinin rolu. ETT-nin səmərəliliyinin təyini metodları. Elmi-texniki potensialın mahiyyəti və onun hesablanmasının metodologiyası.

İnnovasiya anlayışı. İnnovasiya fəaliyyətinin təşkili formaları və xüsusiyyətləri. İnnovasiya prosesinin idarə edilməsi. İnnovasiya fəaliyyətinin qiymətləndirilməsi. İnnovasiya layihələri və onların iqtisadi səmərəliliyinin qiymətləndirilməsi.İnnovativ tədbirlər: İcarə, lizinq, təsərrüfatçılığın səhmdar formaları.

**Mövzu 8. İctimai istehsalın təşkili formaları. Sahədə istehsal olunan məhsulun keyfiyyəti və onun yaxşılaşdırılması yolları.**

İctimai istehsalın təşkili formaları. Müəssisələrin ölçüsünü xarakterizə edən göstəricilər. Müəssisənin optimal ölçüsünü təyin edən amillər.İxtisaslaşma, kombiniləşmə, koperativləşma və təmərküzləşmə, onların formalaşdırılması yolları.

Keyfiyyət anlayışı. Məhsulun keyfiyyətinə təsir edən amillərin təsnifatı. Məhsulun nomenklaturası, çeşidi və növləri. Məhsulun keyfiyyətində istifadə olunan göstəricilərin hesablanması metodları. Məhsulun keyfiyyətinin yüksəldilməsi yolları.

**Mövzu 9. Müəssisənin kadrlarının tərkibi, təsnifatı və onun hazırlanması yolları. Sahədə əmək məhsuldarlığı və onun yüksəldilməsi yolları.**

Kadrların idarə edilməsi. Kadrların tərkibi və quruluşu. Kadrların tərkibinin proqnozlaşdırılması. Kadrların hazırlanması yolları. Kadrların təsnifatı.Kadrların keyfiyyət göstəricilərinin yüksəldilməsi yolları. Məşğulluq, əmək bazarı. əmək resurslarından istifadənin yaxşılaşdırılması istiqamətləri.

Əmək məhsuldarlığı anlayışı, onun ölçülma metodları. Əmək məhsuldarlığına təsir edən göstəricilərin təsnifatı. Əmək məhsuldarlığının yüksəldilməsi amilləri və ehtiyatları. Əməyin ödənilməsinin təşkili. Əməyin motivasiyası.

**Mövzu 10. Müəssisənin əsas fondları və onun qiymətləndirilməsi üsulları. Müəssisənin istehsal gücü və ondan istifadənin yaxşılaşdırılması yolları.**

Müəssisənin istehsal fondları, onun tərkibi, əsas və dövriyyə fondlarının fərqləri. Əsas fondların fiziki və mənəvi köhnəlməsi, onların formaları. Əsas fondların amortizasiyası. Amortizasiya fondu və amortizasiya ayırmaları. İstehsal gücü. Istehsal  gücünə təsir edən amillər. İstehsal  gücləri balansı. İstehsal güclərindən istifadə göstəriciləri və onun hesablanması metodları.İstehsal gücünün yüksəldilməsi yolları.

**Mövzu 11. Müəssisənin dövriyyə fondları və ondan istifadə göstəriciləri. Müəssisənin dövriyyə vəsaitləri və onun tərkibi.**

Dövriyyə fondlarının mahiyyəti və onun quruluşu və təsnifatı. Dövriyyə fondlarının qiymətləndirilməsi yolları. Dövriyyə fondlarının formalaşdırılması mexanizmləri. Dövriyyə fondlarının tərkibi.

Dövriyyə vəsaitlərinin mahiyyəti, təsnifatı və quruluşu. Dövriyyə və tədavül fondları. Xüsusi və cəlb edilmiş dövriyyə vəsaitləri. Normallaşdırılan və normalladırılmayan dövriyyə vəsaitləri. Normallaşdırma metodları. Dövriyyə vəsaitlərindən istifadə göstəriciləri. Dövriyyə vəsaitlərinin formalaşdırma mənbələri. Dövriyyə vəsaitlərinin mütləq və nisbi azaldılması.

**Mövzu 12. İnvestisiya qoyuluşunun mahiyyəti, tərkibi və onun quruluşu.**

İnvestisiyanın mahiyyəti, tərkibi və AR-nın investisiya fəaliyyəti haqqında qanunu. İnvestisiyanın idarə edilməsi yolları. İnvestisiyanın qiymətləndirilməsi yolları. İnvestisiyanın səmərəlilik göstəriciləri. İnvestisiyanın hesablanması metodları. Gələcək zaman metodu, indiki dəyər, xalis cari dəyər, daxili qayıtma və s. metodlarının mahiyyəti.

**Mövzu 13. Məhsulun maya dəyəri, onun tərkibi, quruluşu və növləri. İstehsal xərclərinin təsnifatı. Mənfəət və rentabellik.**

Maya dəyəri anlayışı, onun növləri, təsnifatı. Maya dəyərinin hesablanmasında kalkulyasiya xərc maddələrinin tərkibi. İstehsal məsrəfləri və onun xərc maddələri. İstehsal xərcləri və maya dəyər arasında asılılıq. Maya dəyərinin aşağı salınması. Mənfəət və rentabellik. Mənfəətin təyini qaydası. Mənfəətin bölüşdürülməsi. İstehsal xərclərinin mahiyyəti və hesablanması qaydası. İstehsal xərclərinə daxil olan amillər.İstehsal xərclərinin aşağı salınması yolları. İstehsal xərcləri maya dəyərinin tərkib hissəsi kimi. Xərc maddələrinin kalkulyasiyası. Alternativ və ümumi iqtisadi xərclər.

## Mövzu 14. İdarəetmənin nəzəri əsasları.

Menecment anlayışı və onun əhəmiyyəti. Menecmentin obyekti. İdarəetmənin prinsipləri. İdarəetmə funksiyaları və növləri. İdarəetmə sistemləri. İdarəetmə sistemlərinin təsnifatı.İdarəetmə qərarlarının mahiyyəti, növləri və onlara qarşı qoyulan tələblər. Menecment sistemində kommunikasiyalar.

## Mövzu 15. Pul tədavülü və pul sistemləri. Qiymət, onun mahiyyəti, növləri və onun həddinin müəyyən edilməsi üsulları.

Pul dövriyyəsi anlayışı, onun məzmunu və quruluşu. Pul dövriyyəsinin təşkilinin nəzəri əsasları. Pul tədavülü qanunları və onların xarakteristikası. Pul sistemləri.

Qiymətin formalaşması yolları. Qiymətin növləri. Qiymətin həddinin müəyyənləşdirilməsi yolları. Qiymətin hesablanması metodikası. Qiymətin tənzimlənməsi yolları.

## Mövzu 16. Maliyyə münasibətləri. Kredit sistemi və banklar. Vergi və vergi sistemi.

Maliyyə münasibətlərinin mahiyyəti. Maliyyənin funksiyaları. Maliyyə sistemi və onun subyektləri. AR-nın maliyyə siyasəti. Dövlət büdcəsi və onun quruluşu və formalaşmasının xüsusiyyətləri.

Kreditin mahiyyəti və formaları. Bank sistemi və onun quruluşu. AR-nın müasir bank sistemi. Kredit sistemi və kredit siyasəti. Qiymətli kağızlar bazarı.

Vergi və onun funksiyaları. Vergi sistemi və vergi növləri. Verginin əsas prinsipləri. Fiskal vergi siyasəti. AR-nın vergi sisteminin xüsusiyyətləri. AR-da istifadə olunan vergilər və onların tutulma mexanizmləri.

**Mövzu 17. Rəqabət və inhisarçılıq. İnflyasiya və onun tənzimlənməsi.**

Rəqabətin mahiyyəti və bazar iqtisadiyyatının inkişafında onun rolu. Rəqabətin tipləri və modelləri. İqtisadiyyatda inhisarçılıq. İnhisar formaları. İnhisarçılığın sosial-iqtisadi nəticələri. Antiinhisar qanunvericiliyi.

İnflyasiyanın mahiyyəti və növləri. İnflyasiyanı doğuran səbəblər.İnflyasiyanın sosial-iqtisadi nəticələri. İnflyasiyanın tənzimləməsi.Antiinflyasiya siyasəti.

## İstifadə edilmiş ədəbiyyat


1. Казначевская Г.Б. Менеджмент, Ростов на – Дону, «Феникс» 2012.
2. Экономика, под ред. профессора А.С. Булатова, М. Юристь,1999.
3. Atakişiyev M.C., Nurəliyeva R.N., Abbasova N.H. İnvestisiya fəaliyyətinin təşkili, Bakı, 2012.
4. Məmmədov A. Marketinq. Bakı, 2010
5. Андреев А.Ф. и др. Организация и управление предприятиями нефтяной и газовой промышленности. М. Нефть и газ. 1999
6. Андреев А.Ф. и др. Основы менеджмента. М. Юраят,1999
7. Бизнес – план инвестиционного проекта. М. Экспертное бюро, 2007
8. Əliyev M.Ə., Hüseynov A.G., Kərimov K.S., Hüseynova Ü.Y., Neft – qaz sənayesinin iqtisadiyyatı və idarə edilməsi. B. “Letterpress” nəşriyyat evi 2016
9. İbrahimov İ., Səfərova V. Sənayenin təşkili və idarə edilməsi. Bakı, BBU, 2018.


“Sənaye iqtisadiyyatı və menecment”
kafedrasının müdiri, professor Q.Ə.Səfərov

“Enerji və neft-kimya sahələrinin iqtisadiyyatı
və menecment” kafedrasının müdiri, professor Q.S.Süleymanov